# DÜNYADA BAŞ VERƏN HADİSƏLƏR
# VƏ
# ZÜHUR ƏLAMƏTLƏRİ

## 1-ci hissə

İslam dinində on ikinci İmamın zühur edəcəyilə bağlı kifayət qədər hədislər vardır. Zühurdan əvvəl bəzi əlamətlər isə müxtəif kitablarda nəql edilir. Mən bu gün bəzi hadisələrlə bağlı nəql edilmiş hədisləri və ona oxşar hadisələrə işarə edəcəyəm. Əlbəttə ki , bu hədislərlə hadisələri yüz faiz eyniləşdirmək niyyətim yoxdur, ancaq oxşarlıqları bir araşdırma olaraq diqqətinizə çatdıracağam.

## Misir

Misirlə bağlı “Bişarətul İslam” kitabının 176-cı səhifəsində Şeyx Mufidin “İrşad” kitabından nəqlən Misirdəki hadisələrə işarə edilir. Misirdəki hadisələrin İmamın zühur əlamətləri olduğu önə çəkilir. Hədisdə deyilir: “Misir əhli öz sadatlarını (rəhbərlərini) öldürəcəkdir”, digər yerdə “Qullar ölkə ağalarına istila tapılacaq”. Əli Kurani özünün “Zuhur əsri” kitabında Misirin qərblilər (və ya qərbyönlülər) tərəfindən istila ediləcəyi qeyd edilir. “Biharul Ənvar”ın 52-ci cildinin 10-cu səhifəsindəki hədisdə deyilir: “Süfyanidən əvvəl Misri (misirli şəxs) və Yəməni xüruc edəcəkdir” .

Misirdə bildiyimiz kimi Məhəmməd Mursi (hədisdəki Misriyə diqqət edin) qiyam edir və hakimiyyəti seçkilər yolu ilə ələ keçirir. Sonradan Qərb və səud rejiminin əliylə hakimiyyət istila olundu. Hazırda Mursi və digər “İxvan”çılar həbsdədir.

Əli Kurani özünün “Zuhur əsri” kitabında məhz Misirdəki güclü bir İslami fəzadan söz açmış və Misirdə daxili inqilablardan hədislərə əsasən söz açmışdır.

Misir hadisələri zamanı Səudiyyə Ərəbistanının qəfil Məhəmməd Mursiyə və Misir xalqına qarşı niyə düşmən mövqeyi tutması məni təəccübləndirmişdi. Lakin qısa araşdırma zamanı bir hədislə bu suala cavab tapdım. Yəni bu sualın cavabının yüz faiz bu olmasını iddia etməsəm də, “Zühur əsri” kitabındakı Əli (ə)-dan nəql edilən “İmam Məhdi Misiri özünün minbəri qərar verəcəkdir” hədis diqqətimi çəkdi. Mənə elə gəlirki, Səudların məhz buna görə, misirlilərə qarşı düşmənçilik göstərdiyini düşünürəm.

## Qum

Biharul Ənvar 52 cild 243-cü səhifəsində İmam Baqirdən belə birr hədis nəql edilir: "Sanki görürəm ki, məşriqdən bir qrup qiyam edir, öz haqlarını istəyirlər, lakin onlara etina edtmirlər. Yenidən öz istəklərinə təkid edirlər, lakin yenə müxaliflər bunu qəbul etmirlər. Onlar belə bir vəziyyəti müşahidə etdikləri zaman qılınclarını (silahlarını) çiyinlərinə qoyaraq düşmən qarşısında dayanırlar. Məhz bu zaman onların istəklərinə müsbət cavab verilər, bu dəfə isə onlar qəbul etməzlər, nəhayət hamılıqla qiyam edərlər. Onlar hidayət bayrağını sizin sahibinizin qüdrətli əlindən başqa bir kəsə həvalə etməzlər. Onların öldürülənləri şəhid hesab olunur. Əgər mən o vaxtı görsəydim, bu əmrin sahibinə kömək etmək üçün özümü saxlayardım".

Biharul Ənvar ın 60cı cild 216-cı səhifəsində isə deyilir "Qum şəhərindənn bir kişi insanları Allaha doğru dəvət edəcək, onun ətrafına elə şəxslər toplaşacaqlarki onların qəlbləri polad

parçaları kimi möhkəmdur, rüzgarın acı hadisələri ilə dolu olan tünd yellər onları yerindən tərpətməz, müharibələrdən qorxmaz və usanmazlar. Onlar yalnız Allaha etimad edərlər. İşin yaxşı nəticəsi ancaq təqvalılara məxsusdur".

Biharul Ənvar ın 60cı cild 216-cı səhifəsində idgər hədisdə deyilir: "Peyğəmbər: Quma ona görə "Qum" adı verilmişdirki, oranın əhalisi həzrət Qaimin ətrafına yığışacaq, onunla birlikdə qiyam edəcək və ətrafında sabitqədəm qalaraq ona kömək edəcəklər".

“Zühur əsri2 kitabında Qumun zühur ərəfəsində xüsusi bir missiya sahibi olması qeyd edilir.

## Hicaz (Ərəbistan)

Bildiyimiz kimi Ərəbistanda hazırda böhran yaşanır. İstər Səudiyyə daxilində Kralın iflic olmasından sonra yaranan daxili qarşıdurmalar, istərsə də digər ərəb ölkələrinin Səudiyyəyə qarşı baş qaldırmasıdır. *Səudiyyə* Ərəbistanı, Bəhreyn və BƏƏ səfirlərini Qətərdən geri çağırması buna misal göstərilə bilər.

Əli Kurani “Biharul Ənvar”ın 52-ci cildinin 157-ci səhifəsindəki hədisə istinadla bildirir ki, Hicazda (Ərəbistanda) ixtilaf yaranacaq. Hədisdə deyilir: “Bəli, bu iş yalnız o vaxt baş verəcəkdir ki, bu filankəsin xanədanında ixtilaf yaransın, həlqələr daralsın və Süfyani zühur etsin, bəlalar şiddətlənsin....”

# 2-ci hissə

## Şam

Şam ölkəsi dedikdə İslam tarixi mənbələrində hazırki Suriya, Livan və Fələstindən bəhs edilir. Bəzən İordaniyanın da Şam ölkəsinə aid edildiyi kitablarda qeyd edilmişdir. Lakin Şam ölkəsi ən çox Suriya və Livan aid edildiyi daha çox mənbələrdə qeyd edilib.

Əli Kuraninin “Zühur Əsri” kitabında böyük alim Şamın Süfyani tərəfindən işğal edildiyi önə çəkilir. Əli Kurani hədislərə əsasən Şam ölkəsində böyük müharibdən bəhs etmişdir. Bir neçə on il əvvəl yazılmış bu kitabda belə bir hadisələrin yazılması insanı çox təəccübləndirir. Məsələn Əli Kuraninin qərb və İran qoşunlarının Şama girəcəyini kitab yazılan zaman çoxları təəccüblə qarşılasada, indi hər kəs bilirki, hazırda İran və qərb ölkələrinin dəstəklədiyi təkfirçilər arasında Suriyada qızğın döyüşlər gedir. Əli Kurani kitabda Şamda fitnəyə bütün müsəlmanları əhatə etməsidə diqqət çəkən məsələdir. Çünki, hazırda Şamdakı fitnələrə demək olarki bütün müsəlman ölkələri qarışmaqdadır. Bəziləri dövlət səviyyəsində dəstək versədə, digərlrinin sakinləri bu müharibədə iştirak edirlər.

Suriyada insanların aclığı hədisdə nəql edilən aclıqdırmı? Biharul Ənvarın 52-ci cildinin 229-cu səhifəsində bir hədis nəql edilir. Hədisdə qeyd edilirki, İki cür aclıq olacaqdır. Biri xüsusi – Kufədə olacaqdır. İkincisi isə xüsusi –şamda olacaqdır. “Ümumi aclıq Şamda baş verəcəkdir, o da elə qorxu və elə aclıqdırki. Heç vaxt o cür aclığa düçar olmamışlar. Aclıq o həzrətin qiyamından əvvəl, qorxu vəhşət və iztirab isə onun qiyamından sonra baş verəcəkdir”.

İmam Əlidən İmam Baqir maraqlı bir hədis nəql edir. Hədisdə bildirilir ki, Şamda güclü bir zəlzələ baş verər və yüz min insan həlak olar. Hədisə görə, Allah bunu möminlər üçün bir rəhmət, kafirlər üçün isə əzab qərar verər.

Hədisin digər yerində isə, maraqlı bir məqam var: “O zaman gəlib çatanda ağ at və sarı bayraq sahiblərini gözləyin ki, onlar məğrib tərəfdən gəlib Şama daxil olarlar və bu zaman uca fəryad, üzücü taqətsizlik və qırmızı ölüm gəlib çatar. Bu zaman Dəməşqin kəndlərinin birinin yerə batmasını gözləyinki, ora Hərşa deyilir. Bu zaman ciyər yeyən Hindənin oğlu Süfyani biyabanından (Süfyani nəslindən olan şəxs) xüruc edər və Dəməşqin minbərinə çıxar. Bu vurhavurda Nəhdinin zühurunun intizarında olun.“ Bu hədis İbni Həmmadın əl yazmasında qeyd edilmişdir. “Ağ atlar” hədisdə qeyd edilirki. Əli Kurani bunu qərblilərin atları kimi qeyd edir, burada “ağ at”ın mənasının Qərb tərəfindən icad edilən hərbi maşınlar olması da mümkündür.

## Suriyadakı qoşunların arasında çəkişmələr – hədislərdə...

Bildiyimiz kimi “İraq Şam İslam Dövləti” adlı terrorçu qruplaşması hazırda “Azad Suriya Ordusu” və “Nusra cəbhəsi” terrorçuları ilə aralarında ciddi narazıçılıq və toqquşmalar vardır. Hətta onlar bir-birilərinə xəvaric, dindən çıxmış kimi adlar da qoymuşlar. Bildiyimiz kimi, adını yazdığım 3 qruplaşma ən böyük terrorçu müxalf qruplardır. Digər qruplaşmalar isə, bir-başa və ya dolayısı yollarla bu 3 qruplaşmaya bağlanır. Biharul Ənvarın 50-ci cildinin 212-ci səhifəsində İmam Sadiqdən diqqət çəkən hədis var. Hədisdə buyurulur: “O ildə Məğrib nahiyyələrindəki bütün ölkələrdə çoxlu ixtilaf yaranacaqdır. Viran olan ilk yer Şamdır. Üç bayrağa malik olanların havadarları – Əshəbin tərəfdarları, Əbqənin ordusu və Süfyani ordusu arasında ixtilaf yaranacaqdır”.

## Süfyani şəxsdir, yoxsa hərəkatın adıdır?

İslam alimlərinin əksəriyyəti onun Əbu Süfyanın nəslindən olacağını bildirir. Bəzi hədislərdə “ciyər yeyən Hindənin oğlu”da Əbu Süfyanın arvadı Hindəyə işarə edilir. İmam Əlinin (ə) Müaviyəyə yazdığı məktubların birində bu haqda məlumat verilir. Məktubda deyilir: “Ey Muaviyə! Sənin övladlarından biri – bədəxlaq, məlum, yelbeyin, zalım, qəlbi əksə çevrilmiş, (həddən artıq) tələbkar və qəzəblidir. Allah rəhmət və mehribançılığı onun qəlbindən çıxarmışdır. Onun dayıları it kimi qaç içirlər. Sanki elə bu dəqiqə görürəm - əgər istəsəydim, onun adını deyər, vəsf edər və neçə yaşı olduğunu deyərdim. O Mədiniyə bir ordu göndərəcəkdir. Onlar Mədinəyə daxil olub kütləvi qırğın törədəcək, yaramaz işlərə əl atacaqlar. Bu halda pak və pəhrizkar(təqvalı) insanlar onlardan qaçar, sonra bir nəfər yer üzünü, zülm və haqsızlıqla dolduğu kimi, haqq ədalətlə doldurar. Mən onun adını bilirəm. Bunu da bilirəm ki, o gündə onun neçə yaşı olacaq və əlamətləri hansıdır”. Bu hədəsə Şeyx Tusi nəql edir, bu hədis Əli Kurani tərəfindən də “Zühur əsri” kitabında qeyd edilib.

Biharul Ənvarın 52-ci cildinin 205-ci səhifəsində Süfyaninin adının Osman atasının adının Üyeynə olduğu bildirilir. Hədisdə onun 4 əlaməti: zahiri çox xoşagəlməz, yekəbaş, üzündə xora xəstəliyinin nişanəsi, ona baxanda sanki bir gözlü olduğu qənaətinə gəlmək olur.

## Bəzi kitablarda isə birinci və ikinci Süfyani haqda da məlumat verilir.

İbni Həmmadın əlyazmasının 76 səhifəsində maraqlı bir hədis diqqətimi çəkdi. Bunu diqqətinizə çatdırıb "İŞİD"ın son açıqlamasını sizə təqdim edəcəyəm. Rəvayətə görə, İbni Abbasdan belə nəql olunur: "Süfyani xüruc edib kütləvi qırğınlar törədər, hətta qadınların qarnını yırtıb uşaqlarını böyük qazanlarda qaynadar".

Misirdə yayımlanan "Əs Yovmus səbi" qəzetinin xəbərinə görə, "İraq Şam İslam Dövlti" adlı terrorçu qruplaşmanın sözcüsü Əbu Muhəmməd Əl Adnani sosial şəbəkələrdə bir görüntülü mesaj paylaşıb. O Suriya ordusu və Hizbullahı hədəfə laraq, bütün qruplaşmaları də hədələyib. Çıxışında o İŞİD-a düşmən olanları başlarının qoparılması, boğazlarının kəsilməsi və qarınlarının deşiləcəyilə hədələyib.

"İŞİD"ın hətta öz radiolarında öz döyüşçülərinə "Siz Süfyaninin əsgələrisiz" deyə müraciət etdiyi bildirilir.

Qeyd edək ki, "İŞİD" hazırda Suriya və İraq ərazilərində fəaliyyət göstərir.

## Ruslarla qərblilərin Süfyanidən əvvəl döyüşü...

Bildiyimiz kimi Ukrayna hadisələri hazırda çox qarışıq vəziyyətə düşmüşdür. Krım Ukraynadan ayrılaraq müstəqilliyini elan etmiş və Rusiyanın yanında olduğunu bəyan etmişdir. Lakin Ukrayna öz ərazi bütövlüyünü qoruyacağıyla bağlı ABŞ-ı bu məsələdə meydana salmaqda maraqlıdır. Press TV və Rusiyanın NTV kimi telekanalları ABŞ-ın yüzlərlə "Blak vater" adlı muzdlu hərbçisinin Ukraynaya gəldiyini xəbər verib. Əli Kurani özünün "Zuhur ısri" kitabında məhz ruslarla qərblilərin toqquşacağı haqda rəvayətlərin olduğunu bildirmişdir.

# 3-cü hissə

## Qirqisyada qanlı müharibə

Əli Kuraninin "Zühur əsri" kitabında Qirqisyada qanlı müharibə haqqında qeydlər var. Bu qeydlərə görə, Süfyani iranlılara qarşı cəbhə açma niyyətilə İraqa daxil olacaq. Onların hədəfi Beytul Müqəddəsdir ki, bu da ola bilsin Süfyaninin İmama bağlı olan ordunun ora girməsindən xəbərdar olub bu işi onlardan əvvəl həyata keçirmək planlarıdır. Kitabda mötəbər rəvayətlərə görə, bu plan baş tutmayacaq. Çünki, İraq yolunda Qirqisiyada dəhşətli bir müharibə baş verəcəkdir. Kitabda qeyd edilir ki, bu müharibənin səbəbi Fərat yaxınlığında böyük bir xəzinənin tapılması olacaqdır. Bundan xəbərdar olanlar bu xəzinə uğrunda döyüşə girişəcəklər. "Mucəmul buldan" kitabında bu yer Suriya ərazisində qeyd edilir. Kitaba görə, Xabur çayının Fərata qovuşduğu yerdə olan bir şəhərdir. Hazırda bura Suriya İraq sərhəddindəki Deyr ez zor şəhəridir. Türkiyə Suriya sərhədinə də yaxındır.

## Deyr ez zor şəhəri haqqında

Bu şəhər haqqında məlumat vermək istəyirəm. Deyr ez zor Şamdan 432 km aralıdır. Bir müddət əvvəl isə burada neft yataqları aşkar edilib. Bundan başqa bu şəhərdən cənub şərqdə Dura yevropos şəhəri yerləşir. Roma İmperiyasının qalıqları əsas bu şəhərdədir. Bizim eradan əvvəl bu

şəhər Roma imperiyası  və Hindistan arasında əsas ticarət şəhəri olub. 3. əsrdə **Suriyada** hökm sürən Palmira imperatorluğunun kraliçası  və Kral Septimius Odinatusun ikinci həyat yoldaşı Zenobiya bura hücum etdikdən sonra bu şəhər Palmira İmperatorluğunun tabeliyinə keçib . Sonra bu şəhər monqolların hücumundan sonra bir çox dağıntılara məruz qalıb.  Hazırki şəhər isə Osmanlı dönəmində tikilib. Bu şəhər haqqında məlumat verməkdə məqsədim budurki, yuxarıda qeyd edilən "xəzinə" məsələsi neftdən başqa bu böyük imperatorluqların xəzinələri də ola bilmə ehtimalını sizinlə bölüşməkdir.

## Bu haqda hədislərdə...

Biharul Ənvarın 52-ci cild, səhifə 246-cı səhifəsində İmam Sadiqdən belə bir hədis nəql edilir: "Həqiqətən Allah Təalanın Qirqisiyada təamla dolu olan süfrəsi vardır ki, göydən bir mələk ondan xəbər verir və nida edərək deyirki, ey səma quşları, ey yerin vəhşi heyvanları, zalımların cəsədlərinin ətindən doymaq üçün tələsin".

Biharul Ənvarın 52-ci cild, səhifə 237-də isə İmam Muhəmməd Baqirdən belə bir hədis nəql edilir: "Sonra Süfyani Əbqə ilə qarşılaşacaq, onlar bir-birilə müharibə aparacaqlar. Süfyani onu, onun yoldaşlarını və Əshəbi qətlə yetirəcəkdir. Öz qoşununu Qirqisiyaya çatdıracaq və orada müharibəyə girişəcəkdir. Bu müharibədə yüz min zalim öldürüləcək və Süfyani yetmiş min nəfərlik bir qoşunu Kufəyə göndərəcəkdir".

"Zühur əsri" kitabının müəllifi "ilahi süfrə"nin mənasını belə izah edirki, zalimlər bir-birilərilə döyüşdükdə ciddi surətdə zəifləyəcək və İmam Zamanın (ə.f) onlara qalib gəlməsinə zəmin yaradacaq.

Qeyd edək ki, "İbni Həmmadın əlyazması"nda da bu rəvayət qeyd edilir. Burada xəzinə "qızıl və gümüş dağ" kimi vəsf edilir.

"Zühur əsri" kitabında iranlı və yəmənlilərin bu döyüşə qatılamayacaqları önə çəkilir.

Bu döyüşün bölgə ölkələri və ya Kürd qruplaşmaları ilə təkfirçilər arasında döyüş kimi dəyərləndirmək olar. Suriyada bu bölgələrdəki kürd və təkfirçilər arasında döyüşlərdən bu nəticəyə gəlmək olarki, belə bir döyüş məhz kürd və təkfirçilər arasında olma ehtimalı yüksəkdir. Çünki, təkfirçilərin kürdlərin qadınlarını halal etməsi, onlara qarşı hücumları, o cümlədən kürdlərin təkfirçilərə qarşı şiddətli cavabları belə bir döyüşün gələcəkdə baş vermə ehtimalını artırır.

Diqqətinzə çatdıraq ki, Suriya İraq və Türkiyəyə yaxın sərhədlərdə kürdlər yanvar ayının sonlarında 3 muxtariyyət yaratdılar. Kobani, Cizrə və Rojava adlandırdıqları bu bölgədə yaradılan kürd muxtariyyətinin özünə aid ordusu var. Kürdlərin qadınlarının halal edilməsindən sonra kürdlər heç bir təkfirçi qruplaşmalarla bir masaya oturmayacaqlarını bəyan edərək onlara qarşı daima hazır durumda olduqlarını bildiriblər. Qeyd edək ki, may-iyun aylarında bu 3 kürd muxtariyyəti vahid ordu yaradacaqlarıyla bağlı razılığa gəliblər. Bu xəbəri kürdlərin ANF xəbər agentliyi yayıb.

İraqın (və ya İraqın bi hissəsinin)  işğal edilməsi

Süfyaninin Qirqisiya müharibəsindən sonra İraqa daxil olacağı mötəbər rəvayətlərdə qeyd olunur. Lakin bu hücuma zəmin yaradılması mühüm olduğu halda Süfyaniyə bağlı qruplaşmalar nə ediblər və ya nə etməyi planlaşdırırlar.

## Şeysbani hərəkatı

Bildiyimiz kimi "İŞİD" İraqın Əl Ənbar bölgəsinə daxil olaraq orada öz "dövlət"lərini qurduqlarını elan ediblər. Lakin "İŞİD"ın Süfyanilə maraqları (Əhlibeyt düşmənçiliyi) ilə üst-üstə düşsədə ola bilsin ki, bu iki qruplar arasında ciddi qarşıdurma olsun. Çünki, Biharul Ənvarın 52-ci cildinin 250-ci səhifəsində Cabir Cofidən nəql olunan bir hədis var. Deyilri ki, Əbu Cəfər İmam Sadiqdən Süfyani barəsində soruşduqda o həzrət belə cavab verir: "Süfyani yalnız o zaman xüruc edər ki, ondan əvvəl Şeysbani İraqda xüruc etsin. O, suyun qaynadığı kimi yer üzündə qaynayar və sizin göndərdiyiniz elçiləri qətlə yetirər. Bundan sonra Süfyaninin xürucunun və Məhdinin (ə.f) zühurunun intizarında olun".

"Şeysbani " - Əhlibeyt rəvayətlərində Əhlibeyt düşməni kimi qeyd edilib. Lüğətdə isə, iblisin adlarından biridir.

Əlbəttə ki, "şeysbani"ni Səddam və ya İraqa hücum edən ABŞ ordusu kimi də qəbul etmək olar. Çünki, hər iki halda Əhlibeyt dostları qətlə yetirilmişdir.

## Süfyani və "niqablı şəxs" İraqda

Biharul Ənvarın 52-ci cild, səhifə 231-232-ci səhifələrində İmam Sadiqdən belə bir həfis nəql edilir: "Sanki mən Süfyaninin (yaxud köməkçilərini) görürəm ki, sizin yamyaşıl, xürrəm ölkənizdə -Kufədə igamətgah seçmişdir. Onun carçısı car çəkib deyir ki, hər kəs "Əli şiəsinin başını gətirsə, ona min dirhəm hədiyyə veriləcəkdir!". Bu zaman qonşu qonşuya hücum edər və bu "şəxs onlardandır!" deyər, boynunu vurub min dirhəm mükafat alar. Amma belə bir gündə sizə yalnız bədəməl qadınların övladları hakim olacaqdır. Sanki mən niqablı bir şəxsi görürəm". Soruşdurlar "o niqablı şəxs kimdir?". İmam buyurdu: "Sizlərdən olan bir kişidir ki, sizin kimi danışır, üzünə niqab vurur və sizə əhatə taparaq tanıyır, halbuki siz onu tanımırsız. O sizin kişilərinizin bir-bir eybini axtarıb bədnam edir. Amma o, zinazadədən başqa bir kəs deyildir."

Bu hədisdə Süfyani və Əhlibeyt düşmənlərinin Kufədə igamətgah seçəcəyi görünür. Bunların şiələrən olmadığı isə dəqiqdir. Çünki, "Əli şiəsinin başını gətirsə, ona min dirhəm hədiyyə veriləcəkdir!" cümləsilə şiə cildinə girən biri ola bilməz. Lakin "Niqablı şəxs" in çox ehtimalki şiə kimi danışacağı ehtimalı var. ". O sizin kişilərinizin bir-bir eybini axtarıb bədnam edir" cümləsi isə, son zamanlar "gizli kamera", "səs yazısı" kimi müasir texnikalarla təhdidlər, eyib açmaqlar adi hal alıb. Ehtimala görə, bu üsullarla şiələrin tanınmışlarına qarşı addımlar atılacaq. Və bunun da arxasında "niqablı şəxs" duracaqdır. Ola bilsin "niqablı şəxs" dedikdə məqsəd, gizli təşkilat və ya xüsusi xidmət orqanı olsun. Məhz bu cür qurumlar üçün hazırda gizli çəkiliş və səs yazmaq adi məsələdir.

İraqla bağlı İbni Həmmadın əlyazmasında da hədis vardır. Bu kitabın 83-cü səhifəsində deyilir: "Süfyaninin süvariləri zülmətli gecə və dağıdıcı sel kimi üz gətirər, hər şeyə çatsalar, onu məhv edərlər. Nəhayət, Kufəyə daxil olub Peyğəmbər Əhlibeytinin ardıcıllarını qətlə yetirərlər. Bu zaman hər tərəfdə Xorasan əhlini axtarmağa başlayarlar, halbuki Xorasan əhli Mehdini (ə.f) axtarmaqla məşğuldurlar: onu çağırar və ona köməyə tələsərlər".

## Şeysbani və “İŞİD” arasında oxşar cəhətlər

Əvvəlki bəhslərdə “İŞİD”ın Süfyaniyə bağlı bir qruplaşma olma ehtimalını qeyd etmişdik. Əlbəttə ki, təkfirçi və sələfi ideologiyasına mənsub olan bütün terrorçuların Süfyaniyə bağlı olma ehtimalını istisna etmirik. Lakin Şeysbani ilə olan rəvayətlə bağlı “İŞİD”ı da qeyd etməyimiz düzgündür.

“İŞİD” 2003-cü ildə təsis edilib. İraqda şiələr əleyhinə terrorlar həyata keçirən “İŞİD” 2004-cü ildə “Əl Qaidə”yə beyət edir. Daha sonra “Əl Qaidə” onların beyətini qəbul edir və beləcə maliyyə problemi həll edilmiş olur. Əlbəttə ki, əvvəldən bu qruplaşma İsrail və ABŞ tərəfindən Səudiyyə və digər ölkədəki vəhhabi şeyxlər tərəfindən mənəvi və maddi dəstək almışdı. Lakin bu qruplaşmadakı müxtəlif qruplarda olan fikir ayrılıqları “Əl Qaidə”yə birləşdikdən sonra əmri vahid mərkəzdən almağa başladı. “İŞİD” “Mücahidin Şura”sı, “Ceyşul Fatihin”, “Cundul Səhabə”, “Kətbiyən Ənsarəl tohid vəl sünnə”, “Ceyşul Taif Əl Mənsur” qruplaşmaları birləşdirərək “İraq Əl Qaidə”si kimi tanındı. Suriya fitnəsindən sonra Suriyaya daxil olan və gizli “səfərbərlik” elan edən “İŞİD” Qafqaz, bəzi Asiya ölkələri, Afrika və İndoneziya, həmçinin ərəb ölkələrindəki təkfirçi vəhhabiləri bir bayraq altında birləşdirdi.

Əvvəldən xəvaricə məxsus bir təbliğata üstünlük verən “İŞİD” vəhhabi alimlərin “Yezid düzgün, İmam Hüseyn səhvdir” fikirlərinə üstünlük vermişdilər.

Qeyd edək ki, Səudiyyə Ərəbistanının baş müftisi Əbdüləziz Ali Şeyx dəfələrlə bu haqda məlumat bildirmişdi. Əl Arifi adlı vəhhbai alimi də bu cür mövqeyini gizlətmir. Vəhhabi alimlərin 90 faizi bu əqidədədir. Hətta Azərbaycanda tanıdığımız vəhhabi axundları da bu cür açıqlamalar vermişlər.

Suriyada müxtəlif ixtilaflardan sonra hətta “cihad fətvaçı”sı kimi tanınan Şeyx Əbu Basir Tartusi “İŞİD”a “ğülat xarici”lər adını vermişdi.

Suriyada “İŞİD” bir neçə hissəyə bölünmüş, bundan sonra “Əl Qaidə”nin “İŞİD”a Suriyanı tərk etmə əmrindən sonra, bir neçə qruplaşma İraq ərazisinə daxil olmuşlar. Hazırda Əl Ənbar bölgəsinin bir hissəsi məhz “İŞİD”ın komandanlığı altındadır.

## 4-cü hissə

Zühurdan əvvəlki hadisələr haqqında danışdıqda Şamdakı (Suriya) hadisələr sanki bu başlanığıcı və ən əsası hesab olunur. Odurki, əvvəlki araşdırmalarda qeyd etdiyimiz kimi, bu mövzuya yenə toxunuruq.

“Əl Məlahimu vəl-fitən” kitabının 17-ci səhifəsində belə İslam Peyğəmbərindən (s) bir rəvayət nəql edilir: “Mənim ümmətimə 4 fitnə varid olacaqdır: birinci fitnədə qan axıdılacaq, ikincidə qanlar və mal-dövlətlər aradan gedəcək, üçüncüdə qan, mal-dövlət və qadınlar halal hesab olunacaqlar. Dördüncü fitnədə isə kar və korluq hamını əhatə edəcək, təlatümlü dəryada olan

gəmiyə oxşayacaqlar. Belə ki, heç kəs sığınacaq tapa bilməyəkdir. O fitnə Şamdan başlayaraq İraqı (Cəzirəni) əhatə edəcək, bəla və giriftarçılıqlar insanları dabbaxanadakı dəri kimi əzişdirəcək, heç kəs "daha bəsdir, əl saxlayın!" – deməyə belə qadir olmayacaqdır. Əgər bu fitnəni bir nahiyədən dəf etsələr, başqa nahiyədən zahir olacaqdır".

Suriyadakı başlayan vətəndaş müharibəsi, daha sonra vətəndaş müharibəsinin qəfil yönünü dəyişərək, Suriya dövlətinin beynəlxalq terrorla üz-üzə gəlməsini bizlər mətbuat üzərindən izləməkdəyik. Həqiqətən də, bu Suriya böhranının əvvəlində yalnızca bildiyimiz döyüşlərin şahidi idik. İkinci mrhələdə terrorçu-quldur qruplaşmaların Şama daxil olmasından sonra təkcə hökümət qoşunları ilə deyil, mülkü vətəndaşların da hədəfə alınması, həmçinin onların mal-dövlətinin talan edilməsi baş verdi. Terrorçuların Əhlibeyt türbələrinə hücum etməsi, həmçinin peyğəmbər səhabələrinin pak cəsədlərinin qəbirlərdən çıxarılması bu müharibəyə Livan "Hizbullah"ının açıq aşkar qarışmasına səbəb oldu. Hətta Seyid Həsən Nəsrullah Xanım Zeynəb türbəsinə terror edəcəkləriylə bağlı təhdidlər səsləndirən təkfirçilərə sərt mesajlar vermiş oldu. "Hizbullah"ın Suriyada qəfil döyüşün yönünü dəyişməsini üçüncü mərhələ hesab edə bilərik. Bundan sonra məhz ələvilər, kürdlər, şiələr və xristianların mal, can və qadınları halal edildi. Bu haqda vəhhabi alimləri fətvalar belə verdilər. Lakin bu qadınların halal məsələsini təkcə bu məsələ ilə məhdudlaşdırmaq olmaz. Çünki, vəhhabi alimlər başda Tunis olmaqla bir çox ərəb ölkələrindən "cihad nigahı" adı ilə İslamda olmayan cinsi istəklərin ödənilməsi üçün qadınların Suriyaya gətirilməsi üçün təbliğatlara başladılar. Məhz vəhhabi terrorçulara qənimət və qadın təklifləri onların bu "cihad"da iştirak etməsinə təkan vermiş oldu. ABŞ statistika mərkəzi olan IAC Suriyadakı terrorçular və onları dəstəkləyənlər barədə verdiyi məlumatda bildirib ki, Suriyadakı xarici terrorçuların sayı böhran başladıqdan etibarən 284 min nəfərdən çox olub. Belə ki, bu terrorçu dəstələr 87 milliyyətdən təşkil olunub. Məlumatda həmçinin bildirilir ki, "Cihad nigahı" üçün Suriyaya qadın göndərən ilk ölkə Tunis olub. Ümumilikdə Suriyaya bu və bu kimi işlər üçün göndərilən qadınların sayı 96 min nəfər olub və onlardan 18 min nəfəri qətlə yetirilib.

## Süfyani boynuna xaç asması...

Tusinin "Qeybət" kitabının 278-ci səhifəsində Bəşir İbni Qalibdən belə rəvayət olnur, mürsəl şəkildə gələn rəvayətdə deyilir: "Süfyani bir qrupun rəhbərliyini öhdəsinə aldığı zaman məsihi bir şəxs boynuna xaç asacaq, rumluların ölkəsindən hərəkət edib bu tərəfə gələcəkdir".

Düzdür Əli Kurani "Zühur Əsri" kitabında "məsihi olmuş şəxsin Şama gəlməsi"ndən danışsada, bəzi alimlər əvvəlki araşdırmalarımızda qeyd etdiyimzi kimi Süfyanini bir şəxs hesab etmir. Süfyaninin "qırmızı bayrağı"nı bəziləri hazırda Fətullah Gülənlə əlaqələndirsələrdə, hazırda onun dünya ictimaiyyətində, xüsusilə Suriya məsələsində hansısa rola malik olmasını deyə bilmərik. Odurki, Pensilvaniya "imam"ının Roma Papası tərəfindən qəbul edilməsi, hətta onun yaxınlarının Roma Papasının əlini öoməi bir həqiqət olsada, bu hərəkatın böyük batil qüvvə - Əbu Süfyan kimi qələmə verməyimiz üçün dəlillərimiz yoxdur. Bununla bağlı məhz Türkiyədə bəziləri Səid Nursinin ."( Şualar, Beşinci Şua, İkinci Makam.) adlı kitabında bu barədə fikirlərinə istinad edirlər: "Rəvayətlərdə varki, Süfyani böyük bir alim olacaq. Elmdə zəlalətə düşər. Və çox alimlər ona tabe olacaqlar. O siyasi elmiylə mövqe qazanar və ağlı (hiylə də ola bilər) çox alimlərin ağıllarını ələ alar, ətrafında fətvaçı edər. Və çox müəllimləri özünə tərəfdar edər və din dərslərindən təcərrüt edən maarifi rəhbər edib tamamiylə şiddətlə çalışır, deməkdir".

## Fətullah Gülən "Məhdəviyyət" düşmənçiliyini gizlətməmişdir...

Türkiyədə nəşr edilən "Yeni ümid" jurnalında suallara cavab verən Fətullah Gülən "Məhdəviyyət" inancına zərbə vurmuşdur. "Xüsusilə də rafizilər (vəhhabi ağızı ilə şiələri nəzərdə tutur) məhdəviyyəti çox canlı tutmaqdadırlar. Amma qəribədirki, Abbasilərin şərrindən qaçdığına və saxlandığı qail olduqları "xilaskar"ın axırzamanda Abbasi fitnəsindən daha böyük bir fitnənin olduğu dəccaliyyət dönəmində birdən birə zühur edəcəyinə, Kaf dağının arxasından çıxar kimi çıxacağına inanırlar. Bu məsələ əqidə baxımından da sorğulanacaq bir məsələdir: Necə gələcək? Göydənmi yerə enəcək? Sirri təklif necə olacaq? Birinin içinə girib, ondanmı çıxacaq?Bu üsuliddin açısından ziddiyət yaradacaq məsələdir, amma onlar belə inanırlar.Acizlər Heraklit gözləyirlər kimi...".

Əlbəttə ki, Fətullah Gülən bu fikirləri öz tərəfdarlarına yeritməsini və insanların Qurana olan əqidəsinə belə zərbə vurur. Necəki, Gülən bu suala bilərəkdən bu cür cavab verməklə Quranda "Əshabi Kəhf"in Allah tərəfindən qorunması, İsa (ə) Peyğəmbərin qeybə çəkilməsi və mütəvatir hədisləri "görmə"mişdir.

## "Qara bayraqlılar"ın həqiqəti...

Bildiyimiz kimi, "qara bayraqllar"la bağlı hədislər vardır. Və Suriya, mumiyyətlə dünyada bir çox terrorçu qruplaşmaların da qara bayraqları vardır. Bəs bu "qayra bayraqlılar"la əsil qara bayraqlılar arasında fərq varmı?

Sünni alimlərindən olan Suyitinin belə bir hədisi diqqət çəkir: "Xorasandan çıxan qara bayraqlılar Kufəyə gələr və Mehdini Məkkədə ortaya çıxdıqdan sonra, Ona beyyət üçün elçi göndərərlər". Digər hədisdə "Xorasandan qara bayraqlılar çıxar və İlyaya (Qüdsə) bayraqlarını sancana kimi onlara heç kəs mane ola bilməz". Bu hədis yenə sünni alimi Termizinin "Sünən" kitabının 3-cü cildinin 382-səhifəsində qeyd edilib. Əhməd ibni Hənbəl isə "Müsnəd"ində bu hədisə yer vermişdir.

"Qara bayraqlılar"ın iki cəbhədə olması ilə bağlı isə Naim ibni Həmmadın "Kitabul Fitən"də belə bir rəvayət diqqət çəkir: "Əbdürrəhman ibni əl Ğaz ibni Rabiə əl Cərşi belə dediyi qeyd edilir: "Rəsullahın dostu Əmir ibni Murrə əl Cəmli belə dedi: "Əlbəttə ki, Xorasandan qara bayraqlılar çıxacaq. Onlar atlarının cilovlarını zeytun ağacına bağlayacaqlar. Dedik ki, bu dediyin yerlərdə zeytun ağacı görmürük. Dedi: Buralara zeytun ağacı əkiləcək, bu bayraqlılar bura gələcəklər və atlarını o ağaclara bağlayacaqlar. Abdullah ibni Adəm , Əbdurrəhmən ibni Süleyman bu rəvayəti nəql etdikdən sorna dedi: "Ancaq birincinin ardından, ikinci olaraq çıxan bayraqlılar (əsil qara bayraqlılar) atlarını bura bağlayacaqlar. Onlar buraya gəldikdə onların üstünə bu bölgə əhlindən olan xaricilər gələr, ilk qara bayraqlılar gizlənməkdən başqa çarə görməzlər".

## Ayətullah Behcət Süfyani haqqında nə demişdir?

"Ayətullah Behcətin hüzurunda" adlı kitabda Süfyani haqqında suala mərhum böyük alim və arif belə cavab verir: "Bu yaxınlarda əhli-sünnənin kitablarından birində belə bir məsələyə rast

gəldim ki, Süfyaninin nəsəbi Əbu Süfyana Yezid və Muaviyə vasitəsilə deyil, Müaviyənin qardaşlarından birinin vasitəsilə çatır. Həmçinin o kitabda göstərilir ki, Süfyani gələndə Muhəmməd, Əli, Həsən, Hüseyn, Zeynəb, Ümmü-Gülsüm adlı şəxsləri, eləcə də (şiə) hamilə qadınların çoxunu qətlə yetirəcək.

Rəvayətlərin birində deyilir: Süfyani İraqın bir məntəqəsində 170 min nəfəri qətlə yetirəcək. Bəziləri elə düşünürdülər ki, qırğın Həzrət gələndə olacaq. Amma belə deyil. Qətliam zühurdan əvvəl olmalıdır.

Mərhum Müqəddəs Məşhədi Nəcəfdə olarkən Allaha dua edib Süfyaninin həyatda olub-olmadığını öyrənmək istəyir. Kazimeyndə avtobusla gedərkən yanında oturmuş bir rəb avtobusdan enən zaman əyilib yavaşca onun qulağına deyir: “Bəli, Süfyani var və hal-hazırda yaşayır”. Bu əhvəlat 5-6 il bundan əvvəl baş vermişdir.

## 5-ci hissə

Biz əvvəlki bəhslərimizdə Şeysbaninin İraqa hücumu haqda hdislərə toxunmuş və Şeysbani ilə İŞİD oxşarlığını diqqətə çəkmişdik. Hazırda bütün dünya İŞİD-ın İraqa hücum etməsi Mosul və bir neçə bölgənin ələ keçirməsindən xəbərdardır.

Bu gün biz İraqla bağlı hədislrə işarə edəcəyik.

Əvvəla İŞİD rəhbəri özünü Əhlibeytə aid edən Əbubəkr Bağdadi haqqında.

Bu şəxs son zamanlar özünü Əhlibeytə aid edərək adının sonun Qureyşi yazdırmağa başlayıb.

Əhli Sünnə mənbələrinə diqqət edək. Əbu Davudun 4077-ci hədis.

Hədisdə qeyd edilir: “Abdullah İbi Ömər dedi ki, Rəsuli Əkrəmin hüzurunda oturmuşduq. Bizə axirəzzamandakı fitnələrdən bəhs etdi və bu məsələ üzərində durdu. Sonra dedi: “Fitnə dumanı özünü bizə nisbət verən şəxsin iki ayağı altından çıxar. O özünü məndən zənn edər, amma məndən deyildir”

Xatırladaq ki, Əbubəkr Bağdadi “Qureyşi” adından əlavə “Huseyni” adından da istifadə edir. Və onlar özlərini Muhəmməd Peyğəmbərə nisbət verirlər.

Şeyx Mufidin “İrşad” kitabının 362-ci səhifəsində maraqlı bir hədis diqqət çəkir.

Hədisə diqqət edək: “(İmam Məhdi) O Kufəyə daxil olanda bayrağa sahib olan üç cinah şəhəri ixtişaşa salacaqdır. Bundan sonra o həzrətin şəhərə daxil olması üçün şərait hazırlanacaq və onu qəbul etməyə tam hazır olacaqdır. O həzrət şəhərə daxil olub minbərdə söhbətə başlayanda, camaatın ağlamağının şiddətindən o həzrətin nə dediyini başa düşə bilməyəcəklər.”

### 3 bayraq...

Hazırda İraqda İraq bayrağı altında birləşən şiə-sünni, kürd bayrağı altında birləşən kürdlər və İŞİD bayrağı altında olan təkfirçi xəvariclәri göstərmək olar.

"Zühur əsri" kitabının müəllifi höccətülislam Əli Kurani bu dövrdə İranlların İraqdakı rolunun olacağını hədislərdə qeyd edildiyini önə çəkir. Belə ki, "Biharul Ənvar"ın 52-ci cild, səhifə 217-də hədisə diqqət edək: "Xorasandan xaric olan qara bayraqlılar Kufədə enəcək və Mehdi zahir olan zaman yenidən beyət etmək üçün o Həzrətin hüzuruna gələcəklər."

Əli Kurani iranlıların rolunun olmasına baxmayaraq İraqın idarəsi 3 bayraq altında olacağını bildirir.

Ukrayna və İraq-Suriya hadisələrinin eyni vaxtda olması...

"Biharul Ənvar"ın 52-ci cildinin 235 –ci səhifəsində buyurulur: "Şərq-qərb əhli bir birilə ixtilafa düşəcəkdir. Bəli, qiblə əhli və sair camaat üzücü qorxu və vəhşətlə qarşılaşacaq və həmin halda yaşayacaqlar. Nəhayət, asimandan bir nida gəlib "köç edin. Köç!" deyər."

Hazırda bildiyimiz kimi Ukrayna və Rusiya arasında, həmçinin Rusiyaya qarşı Qərb ölkələrinin birliyi danılmazdır. "Bir-birilə" ifadəsinin işlənməsi məhz qərb əhlinin bir-birilə, həmçinin şərq əhlinin bi-birilə müharibələrə başlayacağına işarə ola bilər.

## İsrailin hadisələrə müdaxiləsi...

Gördüyümüz kimi İsrail istər Suriyada, istərsədə İraqdakı terrorçulara dolayısı yollarla dəstək verirlər. Hətta bir neçə gün əvvəl İsrail qırıcıları Suriya ərazisini bombalayaraq terrorçulara dəstək vermiş oldu. Suriya XİN-də "bu, terrorçulara yardımdır" kimi açıqlama verdi.

Bəs zühur ərəfəsində İsrail haqda hədislrə varmı?

Sünni alimlər Termizi "Sünən" kitabında (3-cü cild 382-ci səhifə), Əhməd İbni Hənbəl "Musnəd"ində, İbni Kəsir "Nihayə" kitabında bel bir hədis nəql edilir: "Xorasandan qara bayraqlılar xüruc edəcəkdir, heç bir şey onları qaytarmağa qadir olmayacaqdır. Nəhayət bayrağı İlyada (Qüds) dalğalandıracaqlar."

Bəzi şəxslər bu rəvayəti Abbasilərin bayrağı ilə əlaqələndirirlər. Lakin İbni Kəsir özünün "Nihayə" kitabında bu rəvayətə haşiyə yazaraq demişdir? "Bu bayraqlar Bəni-üməyyə hökümətini devirmək üçün Əbu Muslim Xorasaninin vasitəsilə qaldırılan bayraqlar deyil, məqsəd digər qara bayraqlılar Həzrət Məhdi-lə yanaşı gələnlərə aiddir."

İbni Həmmad Məhəmməd ibni Hənəfiyyədən belə bir hədis nəql edir: "Bəni Abbasdan olan bayraqlar məşriq tərəfdən xüruc edəcək, Allahın iradə etdiyi vaxtda dayanacaqlar. Bundan sonra onların ardınca şərq tərəfdən kiçik qara bayraqlılar xüruc edərək Əbu Süfyanın nəslindən olan bir kişi və onun ordusu ilə mübarizə aparacaqlar. Onlar Məhdiyə itaət etməyə meylli olanlardır."

Məhəmməd Hənəfiyyədən nəql edilən digər hədisdə məhz "Beytul Müqəddəsdə qara bayraqlıların düşərgə salacağı və Məhdinin zühuruna şərait yaradacaqları" ilə bağlı cümlələr yer alır.

İbni Həmmad “Əl Fitən” kitabının 106-cı səhifəsində deyilir: “İmamın keşikçiləri Qüdsə daxil olan zaman sayları 12 min nəfər olacaqdır.”

Digər sünni aliminin kitabı “Müsnədi Əhməd”in 3-cü cild, 147-ci səhifəsində isə: “Müsəlmanlar və yəhudilər (İslama düşmən olan) arasında müharibə baş verməyincə Qiyamət başlamaz. Belə ki, müsəlmanlar onların hamısını qətlə yetirər, hətta əgər yəhudilərdən biri daşın, yaxud ağacın arxasında gizlənmiş olsa, o daş və ya o ağac səsə gəlib deyər: “Ey müsəlman! Bu yəhudidir ki, mənim pəhanimdə gizlənmişdir, onu həlak et!.”

Bu günkü yazımın sonunda böyük alim və arif Ayətullah Behcətin İmam Zamanla bağlı dediyi başqa bir fikirini qeyd etmək istəyirəm.

Füzuli Şəfiyevin “Behcətin hüzurunda” kitabının 36-cı səhifəsində Ayətullah Behcətə verilən “İmam Zamanın (ə.f) bizim vəziyyətimizdən xəbəri varmı?” sualına o həzrət belə cavab verir:

“Qeybdə olduğu müddətdə İmam Zaman (ə) bütün işlərdən xəbərdardır. Heç bir iş onun nəzərindən kənarda deyil. Fəaliyyəti də var. O Həzrət (ə.f) Böyük Mirzə Şirazi üçün müxtəlif ismarıclar, tapşırıqlar göndərirdi...”

## 6-cı hissə

# Yəmən

Zühurla bağlı rəvayətlərdə Yəməndəki inqilab xüsusi rola malikdir. Əli Kuraninin “Zühur əsri” kitabında da buna işarələr vardır. Yəməndəki proseslərə keçməmişdən əvvəl bir neçə hədisi diqqətinizə çatdırmaq istəyirəm. Birinci rəvayət “Biharul Ənvar”ın 52-ci cildinin 204 –cü səhifəsində nəql edilir, İmam Sadiq buyurur: “Qaimin qiyamından əvvəl beş əlaamətin baş verəcəyi qətidir. Yəməni (inqilabı), Süfyani (xürucu), asimani nida, Nəfsi Zəkiyyənin qətlə yetirilməsi və səhrada (qoşunun) yerə batması”.

Əli Kurani öz araşdırmasında bu nəticəyə gəlmişdir ki, Yəməni Zeyd İbni Əlinin nəslindəndir. Yəməndəki proseslərlə bağlı yazmamışdan əvvəl qeyd edək ki, hazırda Yəməndəki şiələrin böyük hissəsi zeydi-şiələrdir.

“Biharul Ənvar”ın 52-ci cildinin 210 –cu səhifəsində İmam Sadiqdən digər hədisdə qeyd edilir: “Bu üç nəfərin – Xorasani, Süfyani və Yəməninin qiyamı bir ildə, bir ayda və bir gündə baş verəcəkdir. Yəməni bayrağı hər şeydən artıq hidayət edəndir. Çünki o haqqa dəvət edəcəkdir.”

Əli Kurani araşdırması zamanı “daha çox hidayət edəndir” fikirini Yəmən inqilabının daha sadə, qətiyyətli və düzgünlüklə əlaqələndirir. O həmçinin iranlıların inqilabının zühurdan çox əvvəl olmasıyla bağlı hədislərin olduğunu və Yəməni inqilabının zühura daha yaxın olduğunu bildirir.

Digər bir hədisdə isə, çox maraqlı bir işarə diqqət çəkir. İmam Sadiqin yanında Süfyanidən söhbət açıldıqda o buyurur: “O necə xüruc edə bilərki, hələ **kasiru eynih** Sənada qiyam etməmişdir”. (Kasiruh eyni - gözü sınmış, sındıran gözlü və ya sınıq gözlü mənasını verir)

Yəməndə uzun illərdir ki, rejimlə mübarizədə olan Husi hərəkatı nəhayət öz sözünü deyərək xalqın dəstəyilə hökuməti yumşaq yolla ələ keçirmiş oldu. Husi hərəkatı "Ənsarullah" adlı təşkilatı kimi tanınır. Bu haqda bir az məlumat verilsə yaxşı olardı.

Səud və müttəfiqlərinə görə, Livanda "Hizbullah", Yəməndə "Ənsarullah" məzhəb ziddiyətlərindən istifadə edərək ərəb dünyasına sahib olmaq istəyən İranın bir layihəsidir. Səud rejiminə görə, bu günlər Yəməndə təkrarlananlar Livandakı Hizbullah layihəsinin Yəməndə təkrarıdır.

## "Ənsarullah" və "Hizbullah" arasında oxşar cəhətlər isə bunlardır:

1. ***İctimai dəstək***. "Hizbullah"ın Livanda müsəlmanların dəstəyinin ən azı yarısını qazandığı kimi, "Ənsarullah" da, Yəmən əhalisinin 40 faizindən çoxunun dəstəyini qazanmışdır.
2. ***Hərbi güc***- Ənsarullah da "Hizbullah" kimi hərbi gücə sahibdir .Burada yalnız fərq budur ki, Hizbullah Livanın bir gücü sayıldığı halda, Ənsarullah hələ ki, Yəmən ordusunun bir hissəsi sayılmamaqdadır.
3. ***Məzhəb*** – hər ikisi şiədir. "Hizbullah" 12 imamçı, Yəmən isə zeydi və 12 imamçı. Qeyd edək ki, Husi hərəkatının yüksək rütbəlilərinin artıq 12 imamçı şiə olmaları haqda məlumatlar dolaşır.
4. ***İdelogiya və ittifaq*** – hər iki təşkilat ABŞ və İsrailə qarşı olmaqla İranla ittifaq halındadırlar və İslam Respublikasıyla yaxın münasibətlərə sahibdirlər.
5. ***Suriya mövqeyi*** - Hər iki təşkilat Bəşər Əsədə dəstək verir

   Huseyn Əl Husi hazırda "Ənsarullah"ın lideri olan Əbdülməlik Əl Husinin qardaşı olub. O əvvəl bu təşkilata rəhbərlik edib. Huseyn Əl Husinin İranın Qum şəhərində təhsil aldığı və sonra şəhid edildiyi də bildirilir .

"Husi" döyüşçüləri bir neçə dəfə Səudiyyə və Yəmən ordusu ilə üz-üzə gəliblər. Səudiyyə ordusunun hücumunu dəf edən husilər Abdullah Salehin prezidentlik dövründə bir neçə hərbi qarnizonu ələ keçirmişdi. Bundan sonra hökumət atəşkəsə razılıq vermişdi.

## "Əl Qaidə" və İŞİD-in "Ənsarullah"a münasibəti

Hazırda "Əl Qaidə" Yəməndə hər münasib vaxt tapan kimi Əl-Husi tərəfdarlarına qarşı terror aktları həyatı keçirməkdədir. İŞİD lideri Əbubəkr Bağdadinin son açıqlamasında(ölüm xəbərindən sorna yayılan səs yazısında) Yəməndəki Əl Husi hərəkatı haqda da danışmışdır. O öz tərəfdarlarını Əl-Husi tərəfdarlarına hücuma keçməyə çağırmış və husiləri mürtəd adlandırmışdır.

Yuxarıda hədisi bir daha xatırladaraq bu haqda ehtimal verilən işarələri qeyd etmək istəyirəm. İmam Sadiqdən buyurulan hədis belə idi: "O necə xüruc edə bilərki, hələ **kasiru eynih** Sənada qiyam etməmişdir". "Kasiruh eyni" kəlməsi gözü sınmış, sındıran gözlü və ya sınıq gözlü mənasını verir. Əbdülməlik Əl-Husinin də gözünün birinin qeyri adi olması diqqət çəkən mətləblərdəndir. Bundan başqa bu yerdə qeyd edək ki, Səudiyyə və İsrail kəşfiyyatı Yəməndəki inqilabı İranın İnqilab Keşikçiləri Korpusuna, xüsusilə bu korpsunun "Qüds" briqadasının rəhbəri Qasim Süleymani ilə əlaqələndirirlər.

Yazını çox uzatmaq istəmirəm və qeyd olaraq bildirmək istəyirəm ki, "Hizbullah" lideri Seyid Həsən Nəsrullahın da babası Yəməndəndir....

Ardı var...

**Hazırladı: Ramin Bayramov**

**Bu araşdırmadan istifadə edərkən İslamazeri.az-a və müəllifə istinad vacibdir...**